Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №2, 2021, **s. 62-66**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №2, 2021, **с. 62-66**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №2, 2021, **pp. 62-66**

TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

UOT 784.96

G.Ə.Axundova
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Az 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi,68
E-mail: axundova1949@mail.ru

TƏDRİS XORLAR İLƏ İŞLƏMƏ METODLARI

Açar sözlər: *xor ifaçılığı, repertuar, xormeyster, vokal-texniki imkanlar*

Məqalədə tədris xorları ilə iş üsulları araşdırılır. Burada ilk dəfə olaraq qeyd olunur ki, tədris xorunda repertuarın düzgün tərtibi önəmlidir, çünki, o musiqiyə marağın, ona qarşı olan tələbatın, zövqün yaranmasının və inkişafının özəlidir. Repertuara yüksək professionalıq tələb edən musiqi əsərlərinin daxil edilməsinin labüdlüyü müddəası irəli sürülür, ona görə ki, bu xor kollektivinin musiqi səviyyəsinin artırılmasına qulluq edir.

Г.А.Ахундова

МЕТОДЫ РАБОТЫ С УЧЕБНЫМИ ХОРАМИ

Ключевые слова: *хоровое исполнительство, репертуар, хормейстер, вокально-технические возможности*

В статье рассматриваются методы работы с учебными хорами. Здесь впервые указывается, что в учебных хорах правильное составление репертуара важно, потомучто он является базой для развития, создания интереса и потребности в музыке, формирования вкуса. Выдвигается положение о том, что включение в репертуар произведений, требующих высокого профессионализма необходимо, так как это поднимает музыкальный уровень хорового коллектива.

G.A.Akhundova

METHODS OF WORKING WITH STUDENT CHOIRS

Key words: *choral performance, repertoire, choirmaster, vocal and technical capabilities*

The article discusses methods of working with educational choirs. Here, for the first time, it is indicated that in educational choirs, the correct composition of the repertoire is important, because it is the basis for development, the creation of interest and the need for music, the formation of taste. The proposition is put forward that the inclusion of works requiring high professionalism into the repertoire is necessary, since this raises the musical level of the choral collective.

Təcrübə göstərir ki, xor ifaçılığı tam olaraq repertuardan irəli gəlir ki, o da musiqiyə marağın, ona qarşı olan tələbatın, zövqün yaranmasının və inkişafının özəlidir. İstər ali, istər orta məktəb xorunun repertuarı xarakter, janr və növ etibarilə müxtəlif olmalıdır: ən sadə xalq mahnılarından tutmuş mürəkkəb çoxsəsli əsərlərə, kantatalara, oratoriyalara, opera səhnələrinə qədər. Repertuar yüksək professionalıq tələb edən musiqi əsərlərini daxil etmək ona görə faydalıdır ki, bu xor kollektivinin musiqi səviyyəsinin artırılmasına qulluq edə bilər. Çünki professional tələblər, uşaq və ya tələbə olduqları üçün heç bir güzəştlərin edilməməsi şagirdlərin məsuliyyət hisslərini artırır. Nəzəri biliklər və xorda əldə edilən praktiki bacarıq, kollektiv işin qüvvəsi dirijorun ustalığı, iş əsnasında yaranan fəal maraq – bunların hamısı çətin xor partiturasının öhdəsindən gəlməyə yardım göstərə bilər. Bununla belə repertuar seçimində fikir vermək lazımdır ki, musiqi əsərinin ədəbi məzmunu hər zaman mənalı və düşüncə etibarilə orijinal olsun, onunla tanışlıq yeni bir şeyin öyrənilməsi, həyatın sənətə yeni tərəfinin aşkarlanması anı kimi şagirdlər və ya tələbələr tərəfindən qəvul edilsin. Repertuar seçimi zamanı təkcə bədii deyərlər deyil, həm də şagirdlərin və ya tələbələrin vokal-texniki imkanları da nəzərə alınmalıdır. Məsələn, orta məktəbdə ifa baxımından uşaqların səs imkanlarına uyğun gəlməyən, həddən artıq çətin repertuara meyillilik səslənmənin keyfiyyətini aşağı salır və hələ bərkiməmiş zərif uşaq səslərinə ziyan vurur. Bir sözlə, hər bir xormeyster (istər tədris, istər özfəaliyyət, istərsə də professional xor kollektivinin rəhbəri) öz kollektivinin ifaçılıq imkanlarını, yəni xorun hazırlıq səviyyəsini, onun vokal-texniki, psixoloji və fizioloji imkanlarını, eləcə də xorun kəmiyyət tərkibini hərtərəfli və mükəmməl bilməlidir.

Hər bir əsərin konsert ifasının hazırlıq prosesi iki əsas mərhələdən ibarətdir:

1. Əsərin xormeyster tərəfindən mənimsənilməsi (partitura üzərində iş).

2. Əsərin xor kollektivinə öyrədilməsi.

I. Birinci növbədə xormeyster seçdiyi əsəri mükəmməl öyrənməli, onun musiqi materialını və poetik məzmununu tam mənimsəməlidir. Bu işi həyata keçirərkən xormeyster əsərin dolğun təhlilini aparmalıdır: əsərin ideya məzmununu, janrını, ölçüsünü, lad-tonal əsasını, vokal-intonasiya (xromatizmlər, interval sıçrayışları, tessitura), diksiya və ritmik çətinliklərini, əsərin dinamika və aqogika xüsusiyyətlərini, habelə musiqi cümlələrinin quruluş strukturunu (frazirovka, sezura, kulminasiya) müəyyənləşdirməlidir.

Məsələn, əsərin ideya məzmunu haqqda düşünərkən xorun rəhbəri qısa bir "giriş sözü"nü hazırlamalıdır, iki-üç cümlə ilə elə sözlər və ifadələr işlətməli, elə assosiasiyalar tapmalıdır ki, ifaçıların qəlbinə toxunsun, onlarda əsərə qarşı maraq oyatsın və düzgün ifa tərzinə nail olsun. Özüdə bu giriş sözü hər bir konkret halda müxtəlif olmalıdır, yəni kiçik yaşlı uşaqlarla bir formada, yeniyetmə və gənclərlə başqa, böyüklərlə (professijnal və ya özfəaliyyət xorunda) digər şəkildə aparılmalıdır. Xormeysterin diqqət mərkəzində duran məsələlərdən biri də, əsərin janr mənsubiyyətini müəyyənləşdirilməsi olmalıdır.Əsərin poetik mətni də xormeyster tərəfindən böyük həssaslıqla araşdırılmalıdır.

Əsərin lad-tonallıq quruluşunu təhlil edərkən, xormeyster onun hansı tonallıqda başlanıb, hansında bitdiyini, orta hissəsinda hansı tonallıqlara kənarlaşma və ya modolyasiya etdiyini özü üçün müəyyənləşdirməlidir. Əgər əsər Azərbaycan bəstəkarına mənsubdursa (və ya xalq mahnısıdır), onda xormeyster onun hansı milli ladda yazıldığını, əsər boyu digər ladlara keçid yerlərini təyyin etməlidir. Hətta əsərin musiqisi bir muğam daxilində inkişaf edirsə, muğamın bir güşəsindən digərinə keçid anları belə xormeyster tərəfindən özü üçün qeyd olunmalıdır ki, bu da ifaçılığa müsbət təsir edən məsələlərdən biridir.

Əsərin partiturası üzərində işləyərkən, xormeyster həm də musiqi cümlələrinin quruluşuna fikir verməlidir ki, ifaçılar sezuraları (yəni nəfəs alma anlarını) cümlənin sonunda yerinə yetirsinlər. Nəfəs alma prosesinin xarakteri də düzgün təyin olunmalıdır: cəld əsərlərdə qısa, kəskin ani nəfəs, sürəkli lirik əsərlərdə isə asta yumşaq nəfəs alınmalıdır. Buna nail olmaq üçün xormeyster xüsusi məşğələlər hazırlayıb aparmalıdır.

Əsərin dinamikası da təhlil olunmalıdır: bütün əsər və onun ayrı-ayrı hissələrinin nüansları (forte, piano, kreşendo, diminuyendo və s.) müəyyən olunmalı, əsərin ümumi kulminasiyası qeyd edilməlidir. Bundan başqa əsərin aqogikasına da, yəni əsər boyu temp dəyişikliklərinə də fikir verilməlidir. Əgər əsərdə intonasiya və ya ritmik çətinliklər varsa, xormeyster o yerləri özü üçün xüsusi qeyd etməlidir, onların öhdəsindən necə gələcək haqqında düşünməlidir.

İnstrumental müşaiyəti olan əsərlərdə xormeyster müşaiyətin musiqi

obrazın açıqlanmasında, inkişafında rolunu müəyyənləşdirməlidir və onu ifadəli çalmağı da bacarmalıdır.

Hər hansı bir xor əsərinin partiturası üzərində işləyərkən, xormeyster musiqi materialını və poetik mətni tam əzbərləməlidir, bütün xor partiyalarının melodiyasını ifadəli və düzgün oxumağı bacarmalıdır. Tədricən musiqi materialını mənimsəyərək, o, əsərin obraz-emosional məzmununu düzgün qavramalı, onun təsirini gücləndirən ifaçılıq vasitələrini müəyyənləşdirməlidir. Bunun üçün xormeyster əsərin ifasını daxilən eşitməli, duymalı və təsəvvür etməlidir, bütün akkordların vertikal (şaquli) səslənməsini hiss etməlidir.

Bu iş prosesi dövründə xormeyster əsərin müəllifinin (bəstəkarın) rolunu müəyyənləşdirməlidir. Eyniylə poetik məzmunun müəllifinin (şairin) də yaradıcılığına həvəs və maraq bəslənməlidir.

Təcrübə göstərir ki, əsərin xor tərəfindən ifasının keyfiyyəti çox vaxt xormeysterin partitura üzərindəki işinin keyfiyyətindən asılıdır

II. Əsərin xora öyrədilməsi prosesi özü iki mərhələyə bölünür:

1) Kollektivin ifa ediləcək əsərlə tanışlığı və əsər və müəllifləri haqqda söhbət.

2) Əsərin kollektivə öyrədilməsi.

Hər hansı bir əsərin xora öyrədilməsi prosesində bu iki mərhələnin bir-birini ardıcıllıqla əvəz etməsi, ifaçılıqda vacib məsələlərdən biridir. Kollektivi əsərlə tanış etmək üçün xormeyster müxtəlif metodlardan istifadə edə bilər. Birinci növbədə, xormeyster əsəri musiqi alətində (fortepianoda) emosional və ifadəli şəkildə çalmalı və aparıcı melodiyasını oxumalıdır. Hərdən (xüsusən də məktəbli xorunda) audioyazıdan və yaxud kompyuterdən istifadə etmək də olar. Əsərin xor kollektivi tərəfindən mənimsənilməsi işini təşkil edərkən, xormeyster həm də müğənnilərlə əsərin musiqi və ədəbi məzmununun xarakterik xüsusiyyətləri, əsərin ifa üslubu, yazıldığı dövr, müəllifin musiqi dili və ümumiyyətlə yaradıcılığının spesifik xüsusiyyətləri haqda söhbət aparmalıdır.

Əsərin xor kollektivinə öyrədilməsi mərhələsinin özü iki hissəyə bölünür:

1. Birinci fazada əsərin xor ilə texniki cəhətdən öyrənilməsi prosesi baş verir. Burada əvvəl musiqi əsərini hissələrə bölərək hər xor partiyası ilə ayrı-ayrılıqda aşağıdakı ardıcıllıqla öyrənmək lazımdır: not və ədəbi mətnin öyrənilməsi, intonasiyanın təmizliyi və ritmin dəqiqliyi üzərində işləmə, aydın diksiyaya nail olmaq üçün ayrı-ayrı cümlələri, sözləri və hecaları işləmək, səs, ansambl üzərində iş aparma. Bütün məşqlər boyu oxuyanların səslərinin keyfiyyətinə diqqət yetirilməli və qışqırtılı oxumağa yol verirməməlidir. Hər bir səs qrupu ilə xor partiyalarını tam və dəqiq öyrənəndən sonra onları birləşdirib ikinci fazaya keçmək olar.

2. İkinci fazada xormeyster xor ilə bədii planda işləməlidir, yəni xor tərəfindən əsərin bədii cəhətdən vahid bir əsər kimi mənimsəməsi prosesi baş

verməlidir. Burada musiqi və ədəbi məzmunun sintezi əsasında əsərin bədii ifasına nail olunmalıdır, yəni dinamik dəyişikliklər, templər, səsin xarakteri, ayrı-ayrı partiyaların nüansları, səslərin tarazlaşması, frazirovka kimi ifadəlilik vasitələri üzərində iş aparılmalıdır. Bu fazada xormeyster və kollektiv əsl yaradıcılıq işi aparırlar.

ƏDƏBİYYAT

1. Axundova G.Ə.. Uşaq xor kollektivi ilə işin metodikasında təlim, tərbiyə və inkişaf məsələlərinin qarşılıqlı əlaqəsi. Bakı, 2019
2. Əliyeva M.T. Məktəbli xoru ilə işin əsasları. Bakı, 2020
3. Şamina L. Özfəaliyyət xoru ilə iş. Moskva, 1980

Məqalənin redaksiyaya daxil olma tarixi: 18.08.2021
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.08.2021
Məqalənin çapa qəbul olunma tarixi: 08.10.2021
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.